# Yunus Əmrə divanı

N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının qərarı ilə XIII əsr Türk şairi Yunus Əmrənin Divanı (“Elm və təhsil”, 2021) işıq üzü görüb. Filologiya üzrə fəlsəfə doktoru, dosent Xuraman Hümmətovanın tərtib etdiyi və “Salam olsun” adı ilə nəşr olunan kitaba Yunus Əmrənin müxtəlif məzmunlu ilahiləri və əxlaqi-fəlsəfi, dini-tərbiyəvi məzmunlu, öyüd-nəsihət ruhlu “Risalətün-Nüshiyyə” adlı didaktik məsnəvisi daxil edilib.

2021-ci ildə qardaş Türkiyədə YUNESKO-nun qərarı ilə “Yunus Əmrə ili”-nin elan olunması şərəfinə akademik İsa Həbibbəylinin təşəbbüsü ilə ölkəmizdə də bu ideyaya uyğun olaraq işıq üzü görən Divana akademik özü də “Yunus Əmrə dastanı” adlı geniş və dolğun məzmunlu ön söz yazıb.

“Yunus Əmrə 1240-41-ci ildə Anadolunun Sakarya bölgəsindəki Sarıköydə anadan olmuşdur. Əvvəlcə ibtidai mollaxana məktəbində oxumuş, sonra Konyada ali mədrəsə təhsili almışdır. Şeirlərində Konya şəhərinin təsvirlərinə dair cizgilər vardır. Eyni zamanda şeirindəki düşüncələrdən Yunus Əmrənin islam dinini və hədisləri dərindən öyrəndiyi məlum olur. Konyada təhsil aldığı illərdə Əhməd Kabaklının yazdığı kimi, “özündən otuz beş, qırx yaş böyük olduğu sanılan Mövlana (Mövlana Cəlaləddin Rumi - İ.H.) ilə görüşdüyü, heç olmazsa, onun məclislərində iştirak etdiyi sezilməkdədir”.

Həyatı boyu əsasən əkinçiliklə məşğul olmuş Yunus Əmrə orta səviyyədə ömür sürmüşdür. Ailə qurması haqqında fərqli fikirlər olsa da, daha çox iki dəfə evləndiyi, bir oğlu və bir qızının olduğu güman edilir. Şəhərətrafı bir kənddə və ya “kiçik şəhərdə” uzun ömür yaşamış, həyatını əkinçilik və dərvişliklə keçirmişdir. Hacı Bektaşi Vəli ilə görüşmüş, Tapdıq Əmrə adlı bir şeyxin təliminə rəğbət bəsləmiş, onu özünün mürşidi saymışdır.

Yunus Əmrə dünyagörüşünü daha da zənginləşdirmək, həm də mənsub olduğu təriqəti təbliğ etmək üçün müxtəlif ölkələrə səfər etmişdir. O, ilk növbədə Anadolu ellərini gəzmiş, ölkəsini yaxından tanımağa çalışmış, şeirlərini və ideyalarını yaymışdır. Bundan başqa, Yunus Əmrə Suriyada - Şamda və İraqda olmuş, hər yerdə hörmətlə qarşılanmışdır. Tədqiqatlarda Yunus Əmrənin şeirlərində işlətdiyi “yuxarı ellər” ifadəsinin “Azərbaycan və Qafqaz ölkələri” olduğu güman edilir.

Təriqət əhli və söz adamı kimi özünəməxsus nüfuz qazanmış Yunus Əmrə 1320-ci ildə dünyasını dəyişmişdir. Şairin harada vəfat etməsi dəqiq məlum deyildir. Türkiyədə on dörd yerdə (Əskişəhər - Sarıköydə, Qaramanda, Bursada, Əmrə Sultan kəndində, Ərzurum - Dutçu kəndində, İspartanın Keçiborlu qəsəbəsində, Aksarayda, Sandıklıda, Ünyedə, Sivas ətrafında və s.), Azərbaycan da isə Qax rayonunun Oncalı kəndində Yunus Əmrəyə aid edilən məzarlar vardır. Bunlardan Əskişəhər - Sarıköydəki və ya Qaramanda - Yunus Əmrə məscidinin yaxınlığındakı məzarlar gerçəkliyə daha yaxın hesab olunur. Azərbaycanda Qax rayonunun Oncalı kəndindəki Oğuz qəbiristanlığında Yunus Əmrəyə aid edilən məzar isə şairin ustadı, tanınmış sufi şeyxi Tapdıq Əmrəyə məxsus olduğu bildirilən qəbirdən bir neçə addım aralıda yerləşir. Görkəmli şəxsiyyətlərin adlarının bu məzarların üzərindəki kitabələrdə yazılması, Əhməd Kabaklının yazdığı kimi, “dünya şöhrəti qazanmış oğuztürk şairi Yunus Əmrənin və onun mürşidi, böyük sufi şeyxi Tapdıq Babanın Qax rayonundakı Oğuz qəbiristanlığında qəbri və məqamının olması əzəmətli oğuz-türk sufi şeyxlərinin ... Azərbaycanla da sıx bağlılıqlarını göstərir”.

Akademik İsa Həbibbəyli Yunus Əmrənin həyatı ilə bağlı bu ümumi məlumatları çatdırdıqdan sonra yaradıcılığı ətrafında da çox dəyərli mülahizələr söyləmişdir. Əslində bu fikirlər oxunacaq Divanın müəllifi və yaradıcılığı yönündə mühüm bilgilər verir, oxucularda Yunus Əmrə şəxsiyyəti və poetik fikir aləmi barədə mühüm təsəvvürlər formalaşdırır.

Daha sonra kitabda Əbdülbaqi Gölpınarlının “Yunusun yaşadığı çağ” adlı irihəcmli yazısı verilmişdir ki, bununla əslində o dövrün ağır ictimai-siyasi vəziyyəti və təsəvvüfün yaranıb formalaşması, intişar tapması zərurəti açıqlanmışdır. Bu da sufizmin yarandığı, formalaşdığı zamanlarda cəmiyyətin stabil hala gəlməsi yolunda çox böyük mənəvi yükü öz üzərinə götürdüyünü anladır. Həmin yazıdan “XIII əsrdə Anadoluda təsəvvüf” adlı hissəni təqdim eləməklə, bir sıra mətləbləri anlamaq olar: “Monqollardan qaçan xarəzmlilərin Səlcuqlular tərəfindən şərq və sərhəd bölgələrinə yerləşdirilmələri Monqol yürüşlərini Anadoluya yönəltmiş, Anadolu XIII yüz ildən XIV yüz ilin ilk illərinə qədər dalğa-dalğa gələn monqol ordularıyla çeynənmişdi. Xalq yalnız monqollar tərəfindən öldürülmür, daxili çəkişmələrdə də ölürdü. Monqol ordusunu, sarayı, vəzirləri, bəyləri, divan elçilərini, üsyan edənləri saxlayan ancaq xalq idi. Həm də savaşlardan, qətliamlardan qurtula bilib sağ qalan, qılınc oynadan xalq. O dövrdə hər kəs hər kəsdən şübhələnməkdəydi. Padşahlar belə mövqelərini qorumaq üçün Monqollara sığınır, bəylər belə padişahların yaxınlığını Monqollara sığınmaqla təmin edirdilər. Bütün bu sığınmalarda iş görən puldu, yalandı, iftiraydı. Ölkədə din adına, ədalət adına, sədaqət adına hökm sürən zülm idi.

Qayəsi tam bəlli, diləyi apaçıq, xalqı gizli qucaqlayan, düzəni və hökuməti yıxmağa çalışan Atalılar və Cimri üsyanlarından başqa, sonradan “Taxtacılar” deyilən Ağaçərlərinin Maraşda yol kəsişləri, Niğdə, Loluva, Sivrihisar üsyanları kimi bəlirli bir bölgədə parlayıb sönən üsyanlar da əskik deyildi. 1299-cu ildə olduğu kimi yağmursuzluqdan meydana gələn böyük qıtlıqlar xalqa ölü insan etini belə yedirirdi. Yaşayış çəkilməz bir yük olmuşdu. Artıq hər kəs ümidini Tanrıya bağlamışdı.

Bir yandan Monqol yürüşlərindən sonra Anadoluya köçən, bir yandan Anadoluda yetişən sufilər xalqa xeyirin, şərin izafi olduğunu, hər işin Onun iradəsinin təcəllisi olduğunu deyirdilər. Gerçək varlığın yoxluqla ola biləcəyini, hər işdə bir hikmətin mövcudiyyətini təlqin edirdilər. Gözləri buxarlayan, könlü maddi və gerçək yaşayışdan alan, insana boyun bükdürən, təslimiyyəti qayə bilən bir inancı yayacaq ən uyğun mühiti tapırdılar. Doğrusu, təsəvvüf sufinin məzhəbinə və məşrəbinə, bilgisinə və anlayışına görə dəyişirdi. Gerçək təsəvvüf hər şeyi Tanrının zühuru bilməklə bərabət, zülm edənin məzhəriyyətinə uyub zülm etdiyini, fəqət qarşı duranın da məzhəriyyətinə uyub onu kökündən yox etdiyini söyləyirdi. Gerçək təsəvvüf yoxluğu fərdiyyətdən, mənlikdən, məncillikdən yox olmaq, xalqda hər zərrədə gerçək varlıqla var olmaq, özü üçün deyil, toplum üçün yaşamaq sayırdı. Fəqət, qədərçilik bu anlayışlara əngəl olmaqdaydı. Bilgisizlik bu bilginin, bu ürfanın yolunu kəsməkdəydi və xalqın təsəvvüf inancı, bu ümidsiz məkanda özündən keçmək, olanları görməmək surətiylə bir təsəlli işığı oyandırırdı.

Bu çağlarda Anadoluda Müinəddin Pərvanə tərəfindən özünə Tokatda bir dərgah qurduran Fəxrəddin-i İraqiyyi (1239), İbn Ərəbinin (1240) Batiniliklə qarışıq və tamamilə mistik inanclarını Konyada yayan oğulluğu Sədrəddini (1274), “Mirsadül-ibad”la təsəvvüfü mədrəsələşdirən Nəcməddin Dayəni (1343) görməkdəyik. 1035-ci ildə Şirazda ölən İbrahim b. Şəhriyarı Qazəruniyə mənsub Qazəruniyyə təriqətiylə o zaman Əhmədiyyə deyilən Rifailiyin ayrıca Mövlanaya çox bağlı olan Hacı Mübarət Heydəri kimi Heydərilik müməssillərinin olduğunu Əflakidən öyrənməkdəyik. Qələndərilik bu çağlarda yalnız Anadoluda deyil, İraq, Suriya və Misirdə də çox yayılmışdı. Şihabəddini Sührəvərdinin Suriya və Misirdə də çox yayılmışdı. Şihabəddini Sührəvərdinin (1234-1235), IV Rüknəddin Qılınc Arslan zamanında Xəlifə Ən-Nasirli Dinillah (1225) tərəfindən elçiliklə Konyaya gəlişi, Anadoluda fütüvvət əhlinin çox yayqın olduğunu bizə bildirdiyi kimi bunu bir çox qaynaqlardan da öyrənməkdəyik.

Mövlana Cəlaləddinin (1273) çevrəsində toplananlar və bilxassə Çələbi Hüsaməddin (1284) vasitəsiylə fütüvvət əhlini, yəni sənətkarları və əsnafi Mövləviliyə bağlamışdı. Mövlana “Məsnəvi”-siylə, şeirləriylə çox az bir zamanda hətta özü hələ sağkən şöhrəti Anadolu sərhədlərini aşmışdı. Ona uyanların yüz illər boyunca ayrıca musiqi, şeir və rəqs kimi üç əsaslı ünsürə dayanan bir zümrə olaraq varlıqlarını onun adıyla şeirinin çevrəsində “Məsnəvi”sinin mehraqında toplamağa müvəffəq olacaqları çox bəlliydi.

Yunusun doğulduğu, yaşadığı və əbədiyyata köçdüyü çağda Anadoluda siyasi, iqtisadi və dini durum bu idi. Təsəvvüf zümrələri isə Əhmədilər, Qazərunlər, Mövlana aşiqləri, Qələndərilər, Heydərilər və böyük məğlubiyyətə uğradıqları halda zümrəvi varlıqlarını qoruya bildilər. Onlar sonradan Hacı Bəktaşı (1270) özlərinə pir edən Babailər, Şeyx Əhmədi Namiqiyyi Camiyə (1141) nisbət iddia edən Camilər idilər. Gəzgingi dərviş zümrələrindən olan Abdallar, hər şəhərdə olan fütüvvət əhli və adətə sivil əsgər olan və “Runud Rindlər” deyə də anılan fütüvvətin qılınclı (Seyfi) qolu idi. Bunlara “Alp Ərənlər”, “Qaaziyani Rum” da deyilirdi. Bu zümrələrin içərisindən çıxan tanınmış insanların adları durmadan çoxalırdı”.

Məhz bu mühüm məlumatları çatdırdıqdan sonra Əbdülbaqi Gölpınarlı Yunus Əmrənin təsəvvüf əhli kimi yetişib ortaya çıxdığını qeyd edir: “Yunus Əmrə belə bir dövrdə Orta Anadoluda yetişmiş, özünü təsəvvüfə vermiş şəxslərdən idi” (s.24). Məhz Yunus Əmrənin dövrü və sufiliyin yetişmə çağlarına ictimai-siyasi mənzərə fonunda açıqlama gətirən türk alimi bu zəmin üzərində Yunus Əmrə və onun ardıcılları, habelə Yunus Əmrənin dili və s. haqda əhatəli fikirlər söyləyir, Yunus Əmrə yaradıcılığının əsl mahiyyəti və qayəsi barəsində mühüm bilgiləri çatdırır.

“Yunus Əmrə şeirinə sözbaşı” adı ilə Divanda yer tapan yazısında isə Mustafa Tatçı Yunus Əmrə şeirlərinin poetik-fəlsəfi mahiyyətini açıqlayıb: “1240-1 - 1320-1 illər arasında yaşayan Yunus Əmrə Cənabi-Haqqın islamla şərəflənən Türk millətinə və onu axtaran insanlığa böyük bir lütfüdür.

O, bizim mədəniyyətimizin inşasında təməl xərclərindən biridir.

Yunus Əmrə önəmlidir! Belə ki, o, Türk-İslam mədəniyyətinin tarixdə yaşayan hər arifi kimi ilahilərində vəsf etdiyi əxlaqi və irfani dəyərlərlə zehinlərdə, könüllərdə və dildə yeniliklərə imza atmış qurucu bir şəxsiyyətdir.

Bu böyük könül birilərinin qanla boyadığı coğrafiyanı eşqlə boyadı. Addımladığı yolları yaşıllaşdırdı. Ümidsizə ümid, eşqsizə eşq verdi. İrfansız və ağılsızı Haqla tanışdırdı. Böyük bir coğrafiyanı dərgah halına gətirdi. Allahın rənginə boyadığı kəlimələrlə yepyeni bir mədəniyyət quraraq gətdi.

İnsanı yenidən inşa etmək!

Zamanı ana gətirmək!

İnsanlığın fikirlərini, xəyallarını və röyalarını təkamül etdirmək!

İnsanlığı düşdüyü yerdən alıb qaldırmaq, onu haqqa, həqiqətə hazırlamaq, qulluq bilinciylə zənginləşdirib Allaha layiq hala gətirmək...

Əsasən peyğəmbərlərin və onların izindən gedən kamil və mükəmmələrin yükləndiyi görəv və insanlığa qoyduqları miras da budur. Bu miras bütləşdirilən bütün saxta düşüncələrdən qurtulub insanın yenidən inşa edilməsini təmin edəcək yeganə həqiqətdir, başqa bir şey deyil.

Burada mövzumuz olan Yunus Əmrə də varlığının, həqiqətinin və dininin əslindən uzaqlaşan insanlığın səadətə gəlməsi üçün neçə dəyərləri yenidən şərh etdi. Hər arif kimi o da bəzi yanlışları yerindən söküb yerinə yepyeni dəyərlər qoydu, yaşadı, söylədi və könülləri sarsıdaraq getdi.

Yunus Əmrə yaşadığı çağın həqiqəti daşıyan, kamil və mükəmməllərindən Tapdıq Əmrənin qapısında və keçmişində irşad dəzgahında toxundu. Həyatda “odunçuluq” və ya “sakalik” kimi bəsit görə biləcəyimiz bir vəzifəylə sınandı, içini səbrlə təzyin etdi. Nəfsini islamın gözəllikləri ilə tanışdırdı; dəyişdi, dəyişdi, dəyişdi... Dəyişdikcə dərinləşdi! Ledün bulağından qandıqca Məhəmmədiləşdi. Sözü Quran, özü Quran halına gəldi. Öz içində dəyişib dərinləşərkən çevrəsindəkiləri də dəyişdirdi. Yüksəldiyi könül bürcündə dilimizin və dinimizin içini tapdı. “Məndən mənliyim getdi, bütün mülkümü dost tutdu” deyib nəfsinin fani, Cənab-i Haqqın qalıcı olduğunu isbat və elan etdi. Yollar içində bir yol, qullar içində bir qul olduğunu bildi. Bir doğan idi, Tapdıq qoluna qondu. Çoxluq Turundan birlik nuruna yol tapdı. Yol təcrübələrini sözə tökdü. İnsanlığın Haqqa və həqiqətə dönməsi gərəkdiyini söylədi. İncitmədən, qırmadan tökmədən danışdı. Bir baba, bir ata şəfqəti ilə öyüdlər verdi. Eşq imanının arxasında namaza durmuş, könlü cəmaət olmuşdu. Başqa bir göz, başqa bir qulaq, başqa bir dil ilə görüb duyur və danışırdı. O, bizə sevməmiz gərəkdiyini, sevgi yolu ilə Haqqa çatmamız gərəkdiyini öz dilimizlə öyrətdi; bizim eşq və məna dilimiz oldu! Anamızdan öyrəndiyimiz dilə məna libası geydirdi. Özü eşqin rənginə boyananın dilinin də eyni rəngə boyanacağını bilirdi. Ana dili Türkcəni həqiqətin dili halına gətirdi. Ərəbcə bilməyən insanımıza həqiqəti Türkcə ərz etdi. İnsanımızı xalqdan Haqqa, təqliddən təhqiqə dəvət edərkən öz dilləriylə, ümmilərin diliylə “oxu” göndərdi. Onlar da anladılar və yaxşı bir “oxucu” və “oxuyucu” oldular. Sözləri dildən dilə, könüldən könülə yayıldı. Onun könül kitabından söylədiklərini duyub təfəkkürə dalanların qulaqlarına can suyu qaçdı. Evdə, küçədə və bazarda danışılan sözlər onun qələmi ilə səmaya qanadlandı. “Dil hikmətin yoludur!” deyə bayraq açdı; önümüzdən getdi. Arxasından gələnlərin üslubu oldu. Sonrakı gələnlər onun izinə basaraq yeridilər. Böyük Haqq aşiqi Vahib Ümmi (ö.1596) bu səbəblə “Biz Yunusun dərsini övliyadan oxuduq” buyurdu. Niyazi-i Misri (ö. 1694) bu səbəblə “Niyazinin dilindən Yunus durur söyləyən!” dedi. İlahi sevgidən nəsibi olmayan kənar gəzginlərinin anlamadığı bir məqam da bu idi ki, bu eşq və məna dilimizin qurucusu olan zat ümmi idi. Bu kəlimədə heç bir məcaz söhbət mövzusu deyildi.

O bir ümmi idi! “Mədrəsələr müdərrisinin oxuyamadığı eşq dərsini” oxudu və vəlayətin bürclərində könül dilini danışdırdı. Özü aradan çıxmış, “Yaradan” qalmışdı. Bu səbəblə Yunus dilimizin könlü, könlümüzün dili oldu. İslamın dərinlərində gizli həqiqəti tutan bu Türkmən Qocası, evdə, küçədə və bazarda danışılan Türkcəni də dərinləşdirdi; incəltdi, zərif və incə qanadlar taxaraq səmaviləşdirdi. Ana dilimizə bir məna libası geydirdi, dilimizi bir eşq və həqiqət dilinə dönüşdürdü. Nəfsini və nəfəsini Rəbbinin rənginə boyadı. Türkcə onun nəfəsiylə bir vəhy dili halına gəldi. Ərəbcəni Rəbcə edən Cibril-i Əmin bu səfər də Yunusun qələmi ilə Türkcəni Rəbcə halına gətirmişdi...

Və Yunus Türkcənin Cibril-i Əmini oldu” (s.48-50).

Bu minvalla Yunus Əmrənin Divanı “Salam olsun” adıyla Azərbaycan oxucusuna təqdim olunur. Divanın sonluğunda isə açıqlama və lüğətlər verilmişdir ki, bütün bunlar da böyük Türk mütəsəvvüfünün yaradıcılıq irsi ilə bağlı dolğun məlumat bazası ilə oxucunu təmin etmək deməkdir. Biz də öz növbəmizlə Divanı Azərbaycan oxucusuna bu cür dolğun şəkildə təqdim edən Ədəbiyyat İnstitutunun rəhbərliyinə və əməkdaşlarına minnətdarlıq duyğusu ilə “Salam olsun” deyirik.

***Şakir** Əlifoğlu*